BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2010

# KİÇİK CORC BUŞUN PREZİDENTLİYİ DÖVRÜNDƏ ABŞ – ÇXR MÜNASİBƏTLƏRİ

**Ü.C.ƏLİYEVA**
*Şərqşünaslıq Universiteti*
*ulkeraliyeva@box.az.*

*Məqalədə kiçik Corc Buşun prezidentliyi müddətində ABŞ və ÇXR arasındakı münasibətlər nəzərdən keçirilir və bu münasibətlərdə mövcud olan ziddiyyətlərin səbəbləri araşdırılır. İki ölkə münasibətlərində əsas gərginlik mənbəyi olan Tayvan probleminə xüsusi diqqət yetirilir. Problemlərlə əlaqədar aralarında yaranan gərgin vəziyyətdən çıxmaq üçün tərəflərin yeritdiyi siyasət və istifadə etdikləri üsullar tədqiq olunur.*

Son iyirmi beş il ərzində Çinin sürətli iqtisadi inkişafı və bu artım tempinin gələcəkdə də davam edəcəyi perspektivləri ölkənin geosiyasi mövqeyini dəyişir ki, bu da dünyada müxtəlif cür reaksiya dogurur. Beynəlxalq aləmdə narahatlığın əsas səbəbləri Çinin öz potensialına görə ABŞ-dan heç də geri qalmayan qlobal dövlətə çevriləcəyi və dünyada nüfuz dairələri uğrunda rəqabət apara biləcəyi ehtimalıdır. Çin isə dünya ictimaiyyətini bu inkişaf və yüksəlişin sülh xarakteri daşıdığına və iqtisadi inkişafın onun əməkdaşları üçün də çox geniş imkanlar açacağına əmin etməyə çalışır.

Hazırda dünyada, demək olar ki, yeganə hegemon dövlət olan ABŞ-ın buna nünasibətinə gəldikdə isə, aralarındakı ticarət, iqtisadi, mədəni və siyasi əlaqələrin mövcudluğuna və inkişafına baxmayaraq, ABŞ Çinə real təhlükə və rəqib kimi baxmaqda davam edir. Bu sahədə ideologiya və ictimai quruluşla bağlı fikir ayrılıqları spesifik rol oynayır. Belə ki, ÇXR-in Kommunist partiyasının rəhbərliyi altında “Çin səciyyəli sosializm” yolu ilə inkişafı ölkənin keçmiş Sovet İttifaqına çevriləcəyi təhlükəsi yaradır ki, bu da ABŞ üçün qəbuledilməzdir. Odur ki, Birləşmiş Ştatlar Çinin daxili işlərinə qarışmaq üçün “insan hüquqları” və “demokratiya”nın pozulması bəhanələrindən istifadə edir (4, 271).

Oğul C.Buşun prezidentliyinin başlanması ilə ABŞ-ın Çin siyasətinin B.Klinton dövrünün səbrli və mülayim siyasətindən fərqli olacağı gözlənilirdi. Çünki hələ prezidendliyə namizəd olduğu dövrdə kiçik C. Buş öz seçkiqabağı kampaniyası zamanı qeyd etmişdi ki, Çin ABŞ üçün “strateji əməkdaş” deyil, «rəqib»dir (1,47). Ancaq o dövrdən Vaşinqtonun siyasətində çox şey dəyişib. Qeyd edək ki, Buş fəaliyyətə başlayarkən öz xarici siyasət doktrinasını elan etməyə tələsmədi. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra isə ön plana terrorizm və terrorla əlaqəli ölkələr çıxdı. Yeni prezident imperializmdə günahlandırılmaqdan çəkinməyərək öz müttəfiqləri və BMT-ni seçim qarşısında qoydu: ya ABŞ-ı müdafiə etmək, ya da ona rəqib olmaq.

Çinə gəldikdə isə, deyə bilərik ki, Pekin Əfqanıstandakı hadisələr zamanı ziddiyyətli siyasət yürüdürdü. 2001-ci ilin ortalarına gədər ABŞ-ın fəaliyyətini tənqid edən ÇXR 11 sentyabr hadisələrindən sonra terroru tənqid edib, ABŞ-la həmrəy olaraq və ABŞ-ın terrorizm əleyhinə fəaliyyətini müdafiə etsə də, Vaşinqton və müttəfiqlərinə Əfqanistana hücum üçün öz aerodromlarını və hava məkanını verməmişdi. Çünki artıq qeyd etdiyimiz kimi, əvvəlcə ABŞ-ın siyasətini tənqid edən Çin Əfqanıstandakı mövqelərini və beynəlxalq arenadakı simasını itirməkdən qorxurdu (7,12).

1999-cu ildə Belqradda Amerika aviasiyası tərəfindən ÇXR səfirliyinin bombardman olunmasından sonra iki ölkə arasında mövcud olan gərgin münasibətləri 2001-ci il aprelin 1-ində Xaynanda ABŞ kəşviyyat idarəsinin ÇXR hərbi hava qüvvələrinin qırıcı təyyarəsi ilə toqquşması və heyətin çinlilər tərəfindən həbs olunması hadisəsi daha da gərginləşmişdi. Ancaq iqtidarda olan Respublikaçılar partiyasında liberal və mühafizəkar qanad arasında Çinə münasibətdə kəskin fikir ayrılıqlarına baxmayaraq, prezident Buşa liberalların təsiri daha güclü oldu. Bu zaman ifrat mühafizəkar mövqe tutan vitse-prezident R.Çeyni və müdafiə naziri D.Ramsfeld kölgədə qaldılar. Qeyd edək ki, sonralar Ramsfeld öz mövqeyində təkid etməməsinin qəsdən, Buş administrasiyasının qarşılaşdığı ilk beynəlxalq böhran zamanı hökumətin diplomatiyasına mane olmamaq istəyi ilə əlaqədar olduğunu bildirmişdi. Liberal qanada mənsub K.Rayz və K.Pauell isə münaqişənin diplomatik kanallarla yoluna qoyulmasında prezidentə yardımçı oldular (12,3,4,6).

Prezident Buşun 2002-ci il, fevralin 19-da başlanan Çin səfərinin gedişini Çin tərəfi də rəsmi olaraq

«konstruktiv, müsbət və məhsuldar» danışıqlar kimi səciyyələndirsə də, mövcud ziddiyyətlər və problemlər qalmaqda davam edirdi.

2006-cı ildə ÇXR sədri Xu Tszintaonun Birləşmiş Ştatlara həmin il noyabrın 19-21-i ərzində C.Buşun ÇXR-ə rəsmi səfəri olmuş, hər iki səfər zamanı əvvəlki mövqelər və razılaşmalar təsdiqlənmişdir. Qeyd edək ki, ÇXR-ə rəsmi səfərdən bir neçə gün öncə Yaponiyada olan Buş Tayvanı misal gətirərək, Çini iqtisadi və daxili məsələlərdə açıq fəaliyyətə çağırmışdı. Ancaq prezident öz sözünə düzəliş edərək, Vaşinqtonun kursunun dəyişməz olduğunu və «vahid Çin» siyasətini davam etdirdiyini də vurğulamışdı. Bu çıxış təbii ki, Pekində nəzərdən qaçmamış və ÇXR xarici işlər naziri Li Çjaosin Buşun bu bəyanatına tənqidi rəy vermişdi (11,74-75).

Yeni əsrin əvvəlində ÇXR və ABŞ arasındakı münasibətlərə güclü təsir göstərən amillər-ticarət-iqtisadi əlaqələr, beynəlxalq təhlükəsizlik maraqları, insan hüquqları və Tayvan məsələsidir.

Analitiklərin göstərdikləri kimi, yuxarıda qeyd olunan bəzi problemlər iki ölkə arasındakı münasibətlərin inkişafına ciddi təsir göstərməyəcək. Çünki hər iki tərəfin bu işdə maraqları çox böyükdür. Həqiqətən də, Çin və ABŞ arasında ticarət və iqtisadi əlaqələr möhkəmlənməkdə davam edir. Çinin 15 il Ümumdünya Ticarət Təşkilatına üzv olmaq üçün göstərdiyi səylər öz nəticəsini verdi və ÇXR 2001-ci il dekabrın 11-də bu təşkilata üzv oldu.

Hazırda Çinə qoyulan investisiyaların həcmi getdikcə artır. Çünki ABŞ-ın Çinə münasibətdə yumşaq siyasətinə amerikan işçi dairələrinin təsiri də böyükdür. Onlar, ucuz işçi qüvvəsi ilə cəlb etməyi bacaran Çin bazarının mənimsənilməsində maraqlıdırlar.

Bütün bunlara baxmayaraq, dünyada aparıcı və Yer kürəsinin müxtəlif nöqtələrində öz nüfuzunu möhkəmləndirməyə çalışan bir qüvvə kimi ABŞ-ı Çinin artan gücü narahat etməyə bilməz. Ancaq «ABŞ-ın yeni əsr üçün milli təhlükəsizlik strategiyası»nda qeyd olunduğu kimi «Çinin dünyaya cəlb olunması əvəzinə onun təcridi bu dünyanı təhlükəsuz etmir. Əksinə bu bizim Asiyada sabitliyi təmin etmək və kütləvi qırğın silahlarının yayılmasının qarşısını almaq səylərimizi pozacaq. Belə siyasət Çində demokratiya və insan hüquqları məsələsinə mane olacaq və dünyanı əsas bazarlardan birindən məhrum edəcək» (9, 24). Ağ ev tərəfindən 2006-cı ildə yayımlanan və yaxın illər üçün Vaşinqtonun xarici siyasət kursunun əsaslarının əksini tapdığı strategiyada Çin barəsində Vaşinqtonun Şərqi Asiyada ümumi xarici siyasəti kontekstində bəhs olunur və qeyd edilir ki, «ABŞ Çini islahatlar və açılma yollunda dəstəkləyir, çünki ÇXR liderləri öz xalqının azadlıq, sabitlik və tərəqqiyə doğru səylərinə məhz bu yolla cavab verə bilərlər». Eyni zamanda ÇXR-in siyasətindəki bəzi istiqamətlər ABŞ-ı narahat edir. Bunlar içərisində «Çinin silahlı qüvvələrinin gizli şəkildə artırılması», «zəngin resurslara malik ölkələrin onlarda mövcud daxili vəziyyət və bu ölkələrin beynəlxalq arenada yanlış davranışlarına baxmayaraq, ÇXR tərəfindən müdafiə olunması» göstərilir. Fikrimizcə sənəddə bir növ xəbərdarlıq kimi qeyd olunur ki, «Çin liderləri dərk etməlidirlər ki, öz xalqını sərbəst toplaşma, söz və etiqad azadlığından məhrum etməklə, ona geniş mənada azad almaq, satmaq və istehsal imkanı yarada bilməyəcəklər» (3, 17).

Çin-Amerika münasibətlərində ən mühüm məsələ Tayvan problemi olaraq qalır. Xu Tszintaonun başçılığı ilə ÇKP rəhbərlərinin yeni nəsli (2003-cü ildən) Tayvanın birləşdirilməsini təcili vəzifə kimi qarşıya qoymur. Çünki nə qədər ki, adada müstəqil «Tayvan Respublikasının» yaradıldığını elan, yəni Çin Respublikasının Konstitusiyasına dəyişiklik etmirlər, ÇXR güc tətbiqinə əl atmayacaq.

ABŞ-a gəldikdə isə, 2004-cü ilin aprelində vitse-prezident R.Çeyni Çin səfəri zamanı Birləşmiş Ştatların iki ölkə arasında əvvəllər bağlanmış üç rəsmi məlumata sadiq qalacağını təsdiq edərək, qeyd etdi ki, ABŞ «Tayvan körfəzinin iki sahili arasında status-kvonun dəyişilməsinə yönələn heç bir birtərəfli fəaliyyəti müdafiə etməyəcək». Ancaq o, ABŞ-ın Tayvana silah satışı məsələsində heç bir güzəştə getmədi (13,100).

Bunlardan əlavə, iki ölkə arasında geniş ticarət-iqtisadi əlaqələr olmasına baxmayaraq, ziddiyyətlər də qaçılmazdır. Çünki ÇXR-də bazar iqtisadiyyatı, yeni qanunvericilik və siyasi demokratiyanın möhkəmlənməsi hələ başlanğıc mərhələdədir. Digər tərəfdən, Pekin və Vaşinqton arasında qarşılıqlı siyasi etibar çatışmazlığı Birləşmiş Ştatlar tərəfindən bu ölkəyə yüksək və yeni texnika, xüsusilə də hərbi texnika satışını məhdudlaşdırır. Bundan başqa ABŞ Çin yuanının dollara nisbətdə mübadilə kursunun süni şəkildə aşağı salınmasına etiraz edir. Belə ki, bu amerikan müəssisələrinə zərər vuraraq və Amerikada işsizliyə səbəb olaraq, ABŞ-a Çin ixracının artmasına gətirib çıxarır (6, 84).

Beləliklə, ayrı-ayrı rəsmi görüşlər və danışıqlar aralarındakı gərginliyi zəiflətsə də, Vaşinqtonun Çin siyasətinin mahiyyətini dəyişmir.

Münasibətləri gərginləşdirən amillərdən biri də tayvanpərəst və antiçin mövqeli konqresmenlərin fəaliyyətidir. Misal üçün hələ 2000-ci il fevralın 1-də ABŞ Konqresinin nümayəndələr palatası, Çinin dəfələrlə xəbərdarlıqlarına baxmayaraq, «Tayvanın təhlükəsizliyinin gücləndirilməsi haqqında» qanun layihəsini qəbul etmiş və bununla da Tayvanla hərbi əlaqələrin genişləndirilməsi, Tayvana müasir

Amerika silahlarının və texnika satışına «hüquqi» əsas yaratmağa çalışmışdı. Konqres Senatının üzvlərinin və Nümayəndələr Palatasının xeyli üzvünün etirazlarına baxmayaraq, layihə qəbul edildi. Ancaq layihə qanun kimi təsdiq olunardısa, bu, o zamankı Tayvan prezidenti Li Den Xueyin Tayvanı müstəqil dövlət kimi tanımağı tələb etməklə alışdırdığı odu daha da alovlandıracaq, Çin-Amerika münasibətlərini daha da gərginləşdirəcəkdi (5, 95-96).

Tayvanda 2000-ci ildən hakimiyyətə gələn prezident Çen Şuybyan öz inauqurasiya nitqində müstəqillik haqqında referendum çağırmağı və dövlətin adını dəyişdirməməyi vəd etsə də, Pekin onun gələcəkdə adanı müstəqillik haqqında plebisitə sövq edəcəyindən narahatlığını bildirmişdi (10,39). Ancaq 2004-cü ildə Çen Şuybyan növbəti seçkiqabağı bəyanatlar verərkən, ÇXR hökümət başçısı Ven Tszyabaonun ABŞ-a səfəri olmuş və görüş zamanı C. Buş bildirmişdi ki, «Tayvan liderinin çıxışları və fəaliyyəti göstərir ki, o status kvonu dəyişəcək qərarlar qəbul etmək istəyir» və əlavə etmişdi ki, «ABŞ status kvonu dəyişə biləcək birtərəfli fəaliyyətə qarşı çıxır». Nəzərə alaq ki, Buş Çen Şuybyanın adı və vəzifəsini işlətməmiş, sadəcə «lider» ifadəsi ilə kifayətlənmişdi (10,40). Ancaq ikili siyasət yürüdən ABŞ-ın Taybeyə silah satışı (bu sahədə dövriyyə 10 mlyd dollara çatıb) ÇXR-ABŞ münasibətlərini gərgin vəziyyətdə saxlamaqda davam edir (7,8).

Onu da qeyd edək ki, Amerika meylli Tszyan Tszemindən və Çju Juntszidən fərqli olaraq, Xu Tszintao Rusiya ilə münasibətlərə çox böyük yer ayırır. 2004-cü ilin oktyabrında Putinin Çinə səfəri zamanı onlar birgə bəyannaməni imzalamış və ikitərəfli «strateji əməkdaşlığı möhkəmləndirməyə yönəlmiş fəaliyyət planı» elan etmişlər. Bu sənəd iki dövlət arasında 2005-ci ildən 2008-ci ilədək əməkdaşlığı nəzərdə tuturdu (13,101). Ancaq Rusiya-Çin yaxınlaşmasını ötən əsrin SSRİ -Çin yaxınlaşması ilə eyniləşdirmək düzgün olmazdı. Doğrudur, o zaman da ÇXR-in yaranmasını Asiyada öz əleyhinə güclü bir amil kimi dəyərləndirən ABŞ özü Çini SSRİ ilə ittifaqa sövq etmişdi. Pekin bunu istəməmişdi.

O zamankı beynəlxalq şəraitdə, «soyuq müharibə» dövründə SSRİ – ÇXR ittifaqı ABŞ-a qarşı açıq siyasi müharibə demək idi. Hazırkı dövrdə isə nə ABŞ-Rusiya, nə də ABŞ-Çin münasibətlərində gərginlik açıq şəkildə büruzə verilmir. Rusiya-Çin yaxınlaşmasını ABŞ-a qarşı ittifaq, açıq «meydan oxuma» kimi dəyərləndirmək olmaz. Çünki problemlərin mövcudluğuna baxmayaraq ÇXR və ABŞ bunları diplomatik yolla tənzimləməyə çalışır və hər iki tərəfin iqtisadi maraqları sülhün qorunub saxlanmasını zəruri edir.

Kiçik C. Buşun ikinci prezidentlik müddətinin başlanması ABŞ-da «kəskin mövqe» tərəfdarlarının fəallaşması ilə səciyyələnir. Hələ 2005-ci ilin əvvəllərində ABŞ-ın bir sıra görkəmli dövlət xadimləri Çinin Amerika üçün təhlükə olduğunu əsaslandırmağa çalışırdılar.

ABŞ Çinə silah satışına embarqonu qaldırmamaq üçün Avropa İttifaqına təzyiqləri gücləndirdi və İsrailin Çinə təyyarə satışına qadağa qoydu (1,47).

Ümumiyyətlə, son dövrlər artıq qeyd etdiyimiz kimi, ABŞ-da Çinin hərbi gücünün böyük təhlükə olduğu barədə fikirlər geniş yayılıb. Buna səbəb isə Çinin hərbi xərcləri ilə bağlı məlumatların məxfiliyi, Çin mətbuatında tez-tez hərbi dəniz donanmasının genişləndirilməsinin zəruriliyi barədə yazıların görünməsidir (2,200).

Təzyiqlərin artdığı bir şəraitdə Çin öz maraqlarının müdafiəsi naminə, iqtisadi inkişafın davam etdirilməsi üçün bütün mümkün vasitə və resurslardan istifadə edir. Bu gün əksər beynəlxalq iqtisadi, siyasi və mədəni forumlar Çində keçirilir. Çin rəhbərləri xarici səfərlər zamanı imkan düşdükcə digər ölkə rəhbərləri, biznes-elitanı və geniş dünya ictimaiyyətini Çinin səylərinin sülhməramlı olduğuna inandırmağa çalışırlar.

## ƏDƏBİYYAT


1. Бергер Я. Возвышение Китая // Международная жизнь, 2005, №9, s.47-59
2. Бергер Я. Китай в XXI веке: глобализация интересов безопасности //ВОСТОК (ORIENS), 2007, № 4, с.198-202
3. Ваничкин П., Плахов А. О новой «Стратегии в области национальной безопасности»администрации США // КОМПАС, 2006, № 12, с.13-17
4. Василенко И. А. Геополитика современного мира. М.: Гардарики, 2006, с.317
5. Китай: факты и цифры. Пекин: Синьсин, 2000, с.205
6. Лю Цзайци. Что впереди у КНР и США: вооруженный конфликт или потенциальный союз? //Мировая Экономика и Международные Отношения, 2005, № 6, с.76-85
7. Охотников С. Перипетии Афганской политики Пекина//Азия и Африка сегодня, 2003, № 11, с.9-13
8. Павлов В. Если завтра война//Азия и Африка сегодня, 2002, №6, с.7-9
9. Павлов В. КНР-США: некоторые проблемы развития отношений // КОМПАС, 2001, № 4, с.23-28
10. Савенков Ю. «Пекинская опера на Тайбейский лад»//Новое время, 2004, № 1-2, с.38-41
11. Соловьев Е. «КНР- США: обмены визитами активизируются, проблемы остаются» // «КОМПАС», 2006, № 1-2, с.73-80
12. Суржанский А. Американо-китайские отношения в свете воздушного инцидента // КОМПАС, 2001, №16, с.3-6
13. East Asian Strategic Review. 2005. The National Institute for defense Studies Japan. The Japan Times, First edition: June, 2005, 205 pp.

## ОТНОШЕНИЯ МЕЖДУ США И КНР В ГОДЫ ПРЕЗИДЕНТСТВА ДЖ.БУША МЛ

**У.Дж.АЛИЕВА**

**РЕЗЮМЕ**

В данной статье рассматриваются взаимоотношения, сложившиеся между двумя крупными державами США и Китаем, в период пребывания у власти администрации Дж. Буша младшего. Так же предпринята попытка проанализировать причины противоречий между этими странами. Особое внимание уделяется Тайваньской проблеме, являющейся главным источником напряженности в отношениях двух государств. Представлены варианты выхода из создавшейся ситуации, использованные обеими сторонами.

## USA – CHINA RELATIONS DURING G. BUSH'S PRESIDENCY

**U.G.ALIYEVA**

**SUMMARY**

The article studies the relations between China and USA during the authority of George W. Bush younger. The author makes an attempt to analyze the reasons for contradictions between these countries. The Taiwan issue is of particular interest in that respect. The official foreign political course of the government of Bush concerning the People's Republic of China is elucidated in the article.